# Akademik Musiqili Teatrında "O olmasın, bu olsun" tamaşası və Cənnət Səlimovanın ad günü





Yanvarın 31-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında dahi Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında hazırlanan "O olmasın, bu olsun" tamaşası yeni quruluşda tamaşaçılara təqdim olundu. Qeyd edək ki, "O olmasın, bu olsun" komediyasının budəfəki nümayişi görkəmli rejissor, Xalq artisti Cənnət Səlimovanın 85 illik yubileyi münasibətilə oynanıldı. Aktyor oyunundan tutmuş tərtibata, musiqidən tutmuş ifalara qədər hər şey mükəmməl səviyyədə hazırlanmışdır. İki saat ərzində bütün səhnə Üzeyir Hacıbəylinin ruhu ilə nəfəs aldı, onun bütün nəsillər üçün diri, ölməz qalacaq obrazlarının əzəmətinə şahidlik elədi. Tamaşanın nümayişindən sonra Cənnət Səlimovanın 85 illik yubileyi qeyd olundu. Musiqili Teatrın direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Vəfa Mühacirova Azərbaycan mədəniyyəti tarixində önəmli yeri olan görkəmli sənətkarın həyat və yaradıcılığı haqqında söz açaraq teatr rəhbərliyi və kollektiv adından yubilyarı təbrik etdi. Əməkdar artist Əkbər Əlizadə də müəllimi - novator rejissor Cənnət Səlimovanın teatr sahəsindəki səmərəli fəaliyyəti, aktyor-rejissor məktəbinin formalaşmasında əvəzsiz rolundan danışaraq rəğbətini xoş sözlərlə çatdırdı.

Tamaşada iştirak edən millət vəkili, filologiya elmləri doktoru Elnarə Akimova həm yubilyarı təbrik etdi, həm də aktyor heyətinə minnətdarlığını çatdırdı. Qeyd etdi ki, "Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" tamaşası illərlə izlənən, repertuardan düşməyən əsər olsa da, rejissor və aktyor heyətinin onu yeni vurğularla, müasir detal və ştrixlər qataraq təqdim etmələri təqdirəlayiqdir və klassik əsərin yaşarılığının gücü həm də bundadır. Tamaşada hər biri xarakter səviyyəsinə qalxan aktyor oyunundan tutmuş, bədii tərtibata qədər bütün dəqiq qurulmuş mizanlar, musiqinin yaratdığı emosional fon tamaşanın yumoristik üslubunun ötürülməsində böyük rol oynadı. Ümumiyyətlə, teatr kolleqiallıq tələb edən sahədir. Estetik və texniki ölçülər bir-birini tamamlayanda tamaşa uğurlu alınır".

"Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan da aktyor heyətini və Cənnət Səlimovanı uğurlu tamaşaya görə təbrik etdi, onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.

Quruluş verdiyi səhnə əsərinin 103-cü nümayişində (1998-ci ildən bəri) teatr kollektivi və tamaşaçılarla görüşdən məmnun olduğunu bildirən Cənnət Səlimova ona göstərilən diqqət və qayğıya görə teatrın rəhbərliyinə, yaradıcı heyətə, təbrik edən hər kəsə təşəkkürünü bildirdi.

Mədəniyyət və incəsənət xadimlərinin və bir sıra qonaqların iştirak etdikləri tamaşada yubilyara teatrın diplomu və gül-çiçək dəstələri verildi.

Qeyd edək ki, quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, quruluşçu dirijoru əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyov, quruluşçu rəssamı Əməkdar rəssam İsmayıl Məmmədov, dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, rejissor assistenti Elməddin Dadaşov olan bu tamaşada Əməkdar artistlər Şövqi Hüseynov, Ələkbər Əliyev, Əkbər Əlizadə, Əzizağa Əzizov, Nadir Xasiyev, Prezident mükafatçıları Səmədzadə Xasiyev, Hüseyn Əlili, aktyorlar Möylə Mirzəliyev, Gülnarə Abdullayeva, Əliməmməd Novruzov, Türkel Tariqpeyma, Təranə Əliyeva, Elməddin Dadaşov, həmçinin teatrın xor və balet artistləri iştirak ediblər.



